# Erməni xislətinin dumanlı kölgələri

## (polemik əsintilər)

Sabir Arazlı Özgün





***Çox sözdən öncə; masamın üstündə dörd kitab və "ermənistanın xəritələri" var. Mən professor N.N.Molçanovun 'Diplomatiya Petra Pervoqo', 'Qermanskiye istoçniki o qenotside armyan', C.S.Kirokasyanın 'Mladoturki pered sudom istorii', 'Polkovodets Andranik" kitablarını səbrlə, sətirbəsətir oxuyub əxz elədikdən sonra qəribə hislər yaşadım. Xəstə təxəyyüllü, heç bir zaman hovuru yatmayan, təklənəndə quzu, təkləyəndə quduz olan, şəhər tipli qaraçı tayfasının (eləcə də onun havadarlarının) halına lap düzü çox acıdım.***

***İstəkli oxucu, amacım sözümün əvvəlində adlarını çəkdiyim bu kitablardakı bəzi məqamları önə çəkmək və zamanı gəldikcə qənaətimi qısaca olaraq sizlərlə bölüşməkdir.***

***1. N.N.Molçanov. 'Diplomatiya Petra Pervoqo". M., 'Beynəlxalq münasibət" n., 1984.***

***1. ... 1701-ci ildə erməni siyasi xadim, bir zamanlar XIV Luiyə xidmət etmiş İ.Ori Ermənistanın (?) Fars ölkəsinin məngənəsindən azad olması üçün I Pyotra plan təqdim etdi. '250 ildən artıqdır, - deyə o çara yazırdı, - ... bizim xalq təzyiq altındadır. İstəyimiz isə bundan sonra da sizin müqəddəs çarlığın himayəsi altında yaşamaqdır".***

***Xatırladıram ki, həmin vaxt keşiş Vartapet də onunla birlikdə idi.***

Çar İsveçlə müharibə qurtardıqdan sonra (həmin ərəfədə ruslar İsveçlə müharibə vəziyyətindəydi) Ermənistanın (?) azad edilməsi məsələsini diqqət mərkəzində saxlayacağına söz verdi. Gürcüstan çarı VI Vaxtanq da eyni vaxtda ölkəsinin İran və Türkiyə basqınlarından qorunması üçün rus ordusunun köməyinə ehtiyacı olduğu barədə çara müraciət etmişdi (s. 409).

Yeri gəlmişkən, rusların İsveçlə, eləcə də, Kiyev Rus dövlətiylə, İstanbulla (Konstantinopolla) bağlı kökü dərinliklərə gedən çəkişmələrin nədəninə bir az təfərrüatıyla, – Murad Avcının "Qıpçaq çölünün yovşanı" ("Polın polvetskoqo polya", M., 1994) kitabındakı faktların dəqiqliyinə güvənərək aydınlıq gətirmək istəyirəm; ruslar, rus xalqı haqqında ən qədim yazılı məlumata ilk olaraq "Bertin annaları" salnaməsində rast gəlinir. Orada deyilir: "Ruslar 839-cu ildə Lüdovikin yanında olarkən onlardan milli mənsubiyyətləri barədə soruşulanda belə cavab verdilər, – "isveçdirlər!" Salnamədə daha sonra bildirilir ki, "rus" adı altında skandinaviyalıları, – varyaqları tanıyıblar.

"Rus" sözü qədim varyaqcada (island dialektində) "avarçəkənlər" mənasındadır. Onlar Avropanın şimalında "dəniz cəngavərləri" kimi ad çıxarmışdılar. Finlər və estonlar isə İsveçi "Royssiya" adlandırırdılar. SSRİ dövründə bu ölkəyə "Veniya" ("venedlər" sözündəndir, yəni "slavyanlar") deyirdilər.

Varyaqlar 839-cu ildən etibarən işğalçılıq məqsədiylə Avropanın cənubundakı ölkələrə hücuma hazırlaşırdılar. "Slavyanrus" deyilən bu adamlar 860-cı ildə Qara dənizin güneyində yerləşən Amastrid şəhərini işğal edib amansız qətllər törətdilər, talanlar etdilər. Onlar hələ IX əsrdə Bizansa buna görə müraciət etmişdilər. Ruslar (patriarx Fotinin moizələrində deyildiyi kimi) bura gəmilər işləyən çaylardan, dənizlərdən, – başqa xalqların diyarından keçərək gəlmişdilər...

1066-cı ildə varyaqlar İngiltərəni işğal etdilər. İşğalçılığın miqyası genişlənirdi...

***Slavyan ruslar haqqında. Varyaqlar əsasən dəniz ticarətiylə məşğul olurdular. Slavyanlar isə köçəri maldar idilər. Ruslar slavyanlarla döyüşə gedir, çapıb-talayır, əldə etdikləri qənimətlərlə dolanırdılar. Hətta slavyanlar ruslara vergi ödəmək məcburiyyətində idilər. Ruslar özlərinə 'hörmət etdirməyi" bacarırdılar. Varyaqlarla slavyanlar heç qonşu da deyildilər, onları Baltik dənizi ayırırdı. 'Rus" adlanan bu xalq İsveçin şimalında, – sahilboyu ərazidə yaşayırdı və əkin-biçin sahələri belə yox idi.***

***Ruslar IX-XII əsrdə Kiyev Rus dövlətini yaratdılar. Şərqi slavyan şüuru ilə özünü dərk etmiş qədim rusların etnik birliyi erkən feodal çağlarda, – Kiyev Rus dövlətinin bütövlüyü dövründə formalaşmışdır.***

Yunanlar, romalılar, ərəblər, farslar... IX-XII əsrlərdə rusları "varyaqlar" adı ilə məlum olan xalq kimi tanıyırdılar. Roma tarixçisi Tatsitə görə ruslar Avropanın şimalında, – Visla ilə Oder çayları arasında yaşayan bir xalq olub...

...Nəhayət, "Ermənistan" məsələsinə qayıdıram. 1701-ci ildə Ermənistan vardımı?! Əslində isə İ.Ori bir sıra Avropa ölkələrini dolaşmış, "Ermənistan dövləti" yaratmaq üçün döyməditi qapı qalmamışdı. Hətta farsların qəzəbinə tuş gəldiyindən Həmədandan Londona qaçan, Avropada millətçilik toxumu səpən Yusif Əmin Gürcüstanın Rusiyanın həmiliyini qəbul etməsindən sonra Qafqaza gəlmiş, İbrahimxəlil xana belə bu istək bildirilmişdi. Xan isə onu öldürmək qərarına gəlsə də, məlik Şahnəzər buna mane olmuşdur (bax. Y.V.Çəmənzəminli. "Qan içində" romanı). İkinci; İ.Ori deyir: "250 ildən artıqdır..." Belə çıxır ki, 1400-cü illərdə "böyük ermənistan" mövcud imiş. Malades! "Siyasi xadim" çara nədən onu da bəyan etmirdi ki, "hələ IV əsrdə bizim Böyük Ermənistan çarlığı olub?!!" Görünür İ.Ori çox dərinə getmək istəməyib...

Kitabda Türkiyə-Rusiya münasibətlərinə böyük yer ayrılıb. Məsələn, qeyd olunur ki, bu iki ölkə I Pyotrun çarlığı dövründə dəfələrlə, qarşılıqlı olaraq bir-birinə müharibə elan edib. Xüsusilə, türklərin 1453-cü ildə Konstantinopolu ələ keçirib adını dəyişərək İstanbul qoymasını ruslar həzm edə bilmirdilər. Təkcə 1710-1714-cü illərdə Osmanlı dövləti Rusiyaya dörd dəfə müharibə elan etmişdi. Pyotrun məqsədi İran və Osmanlı dövləti də daxil olmaqla isti dənizlərə qədər olan torpaqları işğal etmək idi. Hətta "Vəsiyyətnamə"sində də bunu geniş və aydın şəkildə dilə gətirir. Çar bu siyasətin reallaşmasında erməni kartından səmərəli istifadə etməyi zəruri hesab edirdi.

2. "... 1722-ci ildə əfqanların hücumu nəticəsində İran məğlub oldu və Hüseyn şah öldürüldü. Ona görə şahın kiçik oğlu Təhməz-Mirzə ruslardan kömək istədi. Həmin ilin 18 iyununda Pyotrun başçılığıyla 22 minlik ordu Astraxandan hərəkətə keçərək Xəzərətrafı ərazilərdə asayişi döyüş aparmadan bərpa etdi. 1723-cü ilin əvvəllərində Türkiyənin nəzarətində olan bu torpaqlar, - Ermənistanın müsəlmanlar yaşayan bu bölgələri artıq rusların hökmranlığı altındaydı. Bu isə türklərin səbrini tükədirdi. Pyotr bunu bildiyindən ordunun Türkiyəyə qarşı müharibəyə hazırlaşması barədə əmr verdi".

Üstəlik... 1723-cü ilin sonunda İstanbulda bildilər ki, 12 sentyabrda Təhməz şah Peterburqda Rusiya ilə anlaşma imzalayıb. Əhdnaməyə əsasən Dərbənd, Bakı, Şirvan, Gilan, Mazandaran, Astrabad, - Xəzər dənizinin cənub və qərb hissələri rusların tabeliyinə keçib.

12 iyun 1724-cü ildə İstanbulda Türkiyə ilə Rusiya arasında anlaşma imzalandı, çünki türklər buna məcbur idi...

I Pyotr tövsiyə edirdi ki, erməniləri mümkün qədər tumarlamaq, köç etmələrinə onlarda daha çox həvəs yaratmaq lazımdır. Bu əsnada, Gürcüstan və Ermənistanın xristian əhalisinin müsəlman zülmündən xilas edilib nicat tapması məsələsi, necə ki, Pyotr söz vermişdi, hələ də gündəmdə idi (s.410-13). Lakin... 1690-cı ildə böyük qardaşı öldükdən sonra 18 yaşında taxta əyləşən imperator I Pyotr 27 yanvar 1725-ci ildə 53 yaşında ikən öldü və onun 35 illik çarlıq dövrü başa çatdı (s. 421).

440 səhifəlik kitabda Azərbaycanın adı çəkilmir. Tarixi torpaqlarımız ya İran, ya da Ermənistanın əraziləri kimi göstərilir.

Bu arada Z.Balayanın "Ocaq" kitabı da 1984-cü ildə çap olunmuşdur. Bu bir təsadüfmü?!

2. "Qermanskiye istoçniki o qenotside armyan"(II cilddə, I cild), "Ayastan" n., 1991.

Professor S.Stepanyan 17 avqust 1970-ci ildə Veqnerə məktub yazaraq Osmanlı imperiyası dövründə I Dünya müharibəsi zamanı erməni soyqırımı ilə bağlı həm özünün, həm də Almaniya arxivlərindəki materialların toplanaraq ona göndərilməsini xahiş etdi. Cavab məktubunda Veqner yazdı: "Hörmətli cənab Stepanyan, diqqətinizə görə sizə ürəkdən minnətdar olduğumu bildirirəm. Siz mənim yaralı yerimə toxundunuz. Ona görə tez bir zamanda Ermənistan lehinə yazdığım, gərgin əməyimin məhsulu olan və müxtəlif nəşriyyatlarda çap etdirdiyim həmin yaradıcılıq nümunələrini sizə göndərəcəyəm. Dostlıq salamıyla sizin Armin T.Veqner".

Kimdir Armin Teofil Veqner? – "O, alman şairidir. Yazıçıdır. Publisistdir. Və sairdir... 1915-ci ildə alman ordusunun tərkibində sanitar xidmətçisi kimi müharibədə iştirak etmiş, erməni soyqırımının (? – Ö.S.A.) canlı şahidi olmuşdur. 1933-cü ildə A.Hitler əleyhinə "açıq məktub" yazdığına görə gestapo tərəfindən həbs edilmişdir. 1968-ci ildə ikinci dəfə İrəvanda olarkən Sitsernakaberddəki soyqırım abidəsini diz çökərək ziyarət etmişdir. (Bir qeyd: MK-nın icazəsi ilə ermənilər 1965-ci ildə "soyqırım" abidəkompleksini (Nəhayət!) inşa etsələr də, 24 aprel matəm və qeyri iş günü kimi Ermənistan Ali Soveti tərəfindən qərar 30 noyabr 1988-ci ildə qəbul edildi)".

***Veqner haqqında məlumat qısaca belədir.***

***Kitabda həmçinin onun çəkdiyi 2 min (?) fotodan nümunələr təqdim olunur. Şəkillərdən birinin altında yazılıb: 'Muş monastrına toplanaraq yandırılan qadın və uşaqların cəsədləri". Nə demək istədiyim isə yəqin ki, anlaşılandır.***

***Veqnerin 'gərgin əməyinin məhsulu olan" yazdıqlarından bəzi parçaları diqqətinizə çatdırıram:***

***1. ... 1919-cu ildə ABŞ prezidenti V.Vilsona ünvanladığı açıq məktubda deyir: 'Cənab prezident! Sizə tanış olmadığınız biri müraciət edir, qulağınızı bağlamayın. Mən artıq bir dəfə sizin Konstantinopol(?)dakı səfirliyinizə də məktub təqdim etmişəm"...***

(ardı gələn sayımızda)